**Məmmədov Nizami (ibtidai sinif müəllimi): "Elcanı lap uşaqlığından tanıyıram. Belə bir deyim var - müəllim ikinci valideyndir. Bax, mən Elcanın ikinci valideyni kimi olmuşam. Axı, mən onun ilk müəllimiyəm. Ona ilk dəfə hərfləri, yazı-pozunu, rəqəmləri öyrətməklə bərabər, elə bir bilgiləri də öyrətməyə çalışmışam ki, bununla o, kiçik cəmiyyəti olan ailədən böyük cəmiyyətimizə qapı aça bilsin.**

## (On altıncı yazı)

# El harayına can deyən şəhid

## ELCAN

*(Əvvəli ötən saylarımızda)*

İndi mən görürəm ki, Elcan bu qapını şərəflə, ləyaqətlə açmağı bacardı. O, əsl kişi olaraq yetişdi və kişi olaraq da canını Vətəninə fəda etdi. Bu gün mən Elcanla fəxr etməklə yanaşı, onun ilk müəllimi olmağımla qürur duyuram. Eyni zamanda valideynləri qədər onu itirdiyimizə görə kədərlənirəm. Bu kədərimi toxdadan yeganə amil Elcanın şəhid olub Cənnətə getməsidir. Məkanı həmişə Cənnət olub, qəbri nurla dolsun".

Könül Əsgərova (fiziki tərbiyə müəlliməsi): "Elə adamlar var ki, adam onun barəsində heç danışmaq belə istəmir. Lakin elələri də var ki, onun haqqında danışdıqca elə hey danışmaq istəyirsən. Elcan məhz belələrindən idi. Biz müəllimlər onun xəbərini eşitdikdən sonra elə hey ondan danışırıq. Mənim göz yaşlarım kədər və qürur göz yaşlarının qarışığıdır. Elcan balam kimi çox istədiyim bir uşaq idi. Onu itirməklə mən öz əzizimi itirmişəm. Amma müəlliməsi kimi qürur duyuram ki, şagirdim Elcan hamımızın başını ucaltdı. Bu böyük qələbəmiz Elcan və elcanların qəhrəmanlığı sayəsində əldə edildi. Hesab edirəm ki, onun adı və xatirəsi mənim və bütün müəllimlərinin qəlbində əbədi olaraq yaşayacaqdır. Şəhidlər ölməz, Vətən bölünməz!".

Təranə Namazova (rəsmxətt müəlliməsi): "Mən Elcana illərlə dərs demişəm. Hələ də gözlərimin önündədir: pəncərə tərəfdən ikinci partada oturardı. Rəssamlıq qabiliyyəti vardı. Etiraf edim ki, məndən çox güclü idi. Fitri istedada malik olduğunu düşünürdüm. Çəkdiyi kompozisiyalar günlərin birində ən ali zirvəyə qovuşacağından xəbər verirdi. Öz ləyaqətini hər zaman uca tutardı. Özünü ağsaqqal kimi aparardı. Yəni, mehriban olmağıyla bərabər, həm də ağıryana xasiyyəti vardı. İndi Elcan Allah yanında peyğəmbərlərdən sonra ikinci mərtəbədədir. Xoş halına!".

Gülbahar Dumanova (ingilis dili müəlliməsi): "İlk insan cəmiyyətlərindən günümüzə qədər milyonlarla il ötmüşdür. Bu uzun zaman kəsiyində milyardlarla insan gəlib getmişdir. Həmin insanların içərisindən tək-tükünü çıxmaqla, hamısı tarixin tozlu səhifələrində itib batmışdır. Tək-tük şəxslərin adı günümüzədək gəlib çıxmışdır. Elcanın həyatı və ölümü onun da bu tək-tük insanlardan olduğunu və gələcək nəsillərə qürurla və fəxarətlə ötürüləcəyini göstərir. Elcan və onun kimi qəhrəmanlar əsla ölmür və unudulmurlar. Həyat fanidir, hər kəs bir gün bu dünyadan köçür. Mübarəkdir o şəxsə ki, şəhid adını qazanmaqla ölümsüzlük qazanır. Elcan indi tək mənim yox, bütün Azərbaycan xalqının qürur mənbəyidir".

Tamara Nağıyeva (əmək təlimi müəlliməsi): "Elcan sakit təbiətli bir şagird idi. Dinimiz də bunu deyir ki, şəhidlər ölmür. Bir insan üçün çata biləcəyi ən uca mərtəbə məhz şəhidlik mərtəbəsidir. Bu ad hər yoldan keçənə nəsib olmur. İnsan gərək ləyaqətlə, qeyrətlə ömür sürsün ki, sonda belə bir məqamla mükafatlansın. İndiyə qədər neçə-neçə doğmamız dünyadan nakam köçüb. Təbii ki, hansısa əzizimizin gənc yaşda ölməsi qəlbimizə dağ çəkib. Amma Elcanın itkisi mənə daha çox təsir etdi. Elə bil, doğma balamı itirdim. Bundan sonra neçə il ömrüm var, bir Allah bilir, lakin mənim bildiyim budur ki, Elcanın gülər üzü, kədərqarışıq təbəssümü, oturuşu-duruşu həmişə yadımda qalacaq. Onun yoxluğu çox hiss olunur və bu mənə daha çox təsir edir.

Naibə İsmayılova (riyaziyyat müəlliməsi): "Rəhmətlik tək mənim yox, bütün müəllimlərinin sevgisini qazanmışdı. Bilmirəm, buna intuisiya demək olar, ya yox, lakin mən həmişə Elcanı görəndə onun aurasında bir fərqlilik sezirdim. Cəsarətli oğlan idi. Yalan danışmazdı. Deyərdi ki, yalanı nədənsə qorxub-çəkinənlər danışar. Mənəvi üstünlükləri ilə həmişə seçilərdi. Yadımdan çıxmaz, nəsə tənlik həll eləyəndə, haradasa təntiyib səhv etsəydi üzü qızarardı. Məsuliyyətli bir şagird idi. Elcanın barəsində çox danışmaq olar. O, qürurla, iftixarla yaşayırdı. Şəhidliyi bütün müəllim və müəllimələrini sarsıtsa da, indi hamının qürur mənbəyinə çevrilib".




Nurlana Verdiyeva (sinif rəhbəri): "Şəhidlik xəbəri məni həqiqətən də çox sarsıtdı. Övladını itirmiş bir ana kimi ağladım. Təəssüf ki, həyat çox acımasızdır. Elcanın bir neçə spesifik xüsusiyyəti vardı ki, onlardan biri həmişə mənim diqqətimi özünə cəlb edərdi. Bu da rəhmətliyin gözlərində kədərin kök salması idi. Yeniyetmə yaşlarında axı, bu nə nisgil ola bilərdi ki? Hələ də bu sual mənimçün cavabsız qalıb. Düzdür, çoxlarının xatirəsinə Elcan gülərüzlüyü və təbəssümü ilə həkk olunub. Amma bu təbəssümün arxasındakı kədər bir müəmmaya çevrilmişdi. Bu gün əminəm ki, onun gözlərindəki həmin kədər artıq yox olub, sevinclə əvəzlənib. O, indi dünyanın ən xoşbəxt insanları ilə birlikdə Cənnətdə məskən salıb".

İlqar Məmmədov (fiziki tərbiyə müəllimi): "Xoşbəxtlik həyatda yaşanan xoş anların toplusundan ibarət bir anlayışdır. Ən azından mən belə düşünürəm. Həyatımın ən xoş anları demək olar məktəbdə, dərs dediyim təhsil ocağında keçib. Bu anlarda müəllim yoldaşlarımla bərabər, şagirdlərimin də xüsusi payı olub. Elcanın yeri isə xüsusi qeyd edilməlidir. Çünki onun olduğu dərsdə həmişə müsbət, pozitiv ab-hava hökm sürürdü. Elcan elə bil ki, ətrafına müsbət enerji saçırdı. Tək bir təbəssümü belə qəlbdəki nisgili aparardı. Bunu tək mən yox, söhbət etdiyim bütün pedaqoji heyət də təsdiqləyir. Allah rəhmət eləsin!".

Elmira Bayramova (ana dili və ədəbiyyat müəlliməsi): "Mən Elcana bir il dərs demişəm. Həmin bir ildəki xatirələrimi xülasələşdirsək, Elcanın çevik, diribaş, cəsur, mətin birisi olduğunu deyə bilərəm. Güclü yaddaşa sahib idi. Belə yaddaşla sinifdə əlaçı olmaması məni həmişə üzürdü. Amma mənəvi keyfiyyətləri, mehribanlığı, səmimiliyi onun dəyərini gözümdə birəmin artırırdı. Uzun illər ərzində Elcana dərs demiş müəllim yoldaşlarımın hamılıqla rəhbərlikdən məktəbimizə şəhid Elcan Muradovun adının verilməsini xahiş etməsi məndə qəti bir fikir yaradıb: Elcan təhsil aldığı müddət boyunca hamının qəlbini fəth edibdir".

Dilbər Bəhlulova (tarix müəlliməsi): "Millətlərin, dövlətlərin və sivilizasiyaların həyat yolu tarixin səhifələrində əks olunur. Ən böyük tarixlər məhz qanlar, canlar bahasına ərsəyə gələn tarixlərdir. Bizlər həmin tarixi oxuyaraq keçmiş millətlərin taleləri ilə tanış oluruq. Amma Elcan kimi oğullar tarixi yazırlar. Elcan öz şəhidliyi ilə tarix yazdı və gələcək nəsillər məhz o tarixi oxuyacaqlar. Azərbaycan var olduqca Elcan və elcanlar da var olacaq. Mən, bir tarix müəlliməsi kimi qürur duyuram ki, tarix yazan igid Elcan məhz mənim şagirdim olub.

Sevda Hüseynova (ingilis dili müəlliməsi): "Elcan xatirələrimdə səmimiliyi, sakit təbiəti, dostcanlığı ilə qalıb. Məktəbdə təşkil olunan ictimai tədbirlərdə fəal iştirak etməklə bərabər, özü tədbirə əlavə bir rəng qatardı. Məktəbimizdə oxuduğu illər ərzində dostları ilə çox mehriban idi. Elcanın kiçik qəlbində böyük Vətən sevgisi vardı. Zənnimcə məhz bu sevgi sayəsində o, şəhidliyə yüksəldi, Elcan kimilər! Yaşadığımız bu coğrafi region sadəcə quru torpaq sahəsidir. Torpaq, uğrunda ölən varsa Vətəndir!".

Qismət Namazov (sinif yoldaşı): "Mən illərlə Elcan Muradovla eyni sinifdə oxumuşam. Onunla bir sinif yoldaşı olmaqdan daha yaxın ələqəmiz vardı. Belə ki, biz dost idik. Nə vaxt bir dərd-sərim olsaydı, Elcanla bölüşərdim. Səmimi etiraf edirəm, o, min dosta dəyərdi. Gözəl sirdaş olmağı bacarardı. Hər şeydə birinci olmağa çalışırdı. Liderliyi bacarma xüsusiyyətinə görə, onu özümə bir böyük qardaş bilirdim. Sinifdə öz dostcanlığı ilə hamımızın sevgisini qazanmışdı. Elə adamlar bu dünyaya çox gec-gec gəlir və təəssüf ki, əksər vaxtlarda tez də dünyadan köçürlər".

Allahyarov Adil, Alınağıyev Fərman, Kərimov Həsən (sinif yoldaşları): "Biz Elcanın sinif yoldaşları olmağımızla fəxr edirik. Təəssüf ki, heç kimi geri qaytarmaq olmur. Əgər olsaydı, əlimizdən gələni edərdik ki, Elcanı qaytaraq. İndi biz sanki öz qardaşımızı itirmişik. Xatirələrimizdə həmişə müsbət keyfiyyətləri ilə özünə yer edəcək. Ölkəmizin müstəqilliyində ən çox haqq sahibi olanlar məhz şəhidlərimizdir. Elcan şəhidlik zirvəsinə ucalıb və zənnimizcə elə bu adın özü, onun nakam ömrünü necə yaşadığına dəlildir. Çünki şəhidlərin hamısının həyatı bir yolda cəmlənir: Kişilik, mərdlik, qəhrəmanlıq yolu! Elcan tez-tez bizə şəhidlər sərvəri İmam Hüseyndən danışardı. Bu gün o, şəhid olub və əminik ki, hazırda Həzrət Hüseyn ilə birlikdə Cənnətdədir".

**Cəlilova Müjgan, Vəliyeva Məfkurə, Qurbanova Ülkər (sinif yoldaşları): "Elcan bizə həm qardaş, həm himayəçi olub. Ləyaqətlə yaşanmış həyat illərlə deyil, əməllərlə ölçülür. Biz səmimi olaraq deyirik, rəhmətlik bizim qəlbimizdə ancaq yaxşı əməlləri ilə qalıb. Baxmayaraq ki, bioloji olaraq eyni ailədən deyilik, amma Elcan sinifdə qardaş-bacı mühiti yaratmışdı. Özümüzü sinifdə sanki öz evimizdəki kimi hiss edirdik. Eşidəndə ki, o, şəhid olub, günlərlə ağladıq. Biz qardaşımızı itirmişik. Allah Elcan qardaşımızın ruhunu şad eləsin. O, bizə həmişə mehriban olub. Dua edirik ki, Allah da həmişə onunla mehriban davransın...".**

*(Ardı var)*

***Elvin ARİFOĞLU***